# “Kino səyahətçiləri” Naxçıvana gəlmişdi...

**...Naxçıvana – qədim diyara gəlişimiz 1999-cu ilin sentyabr ayına təsadüf edirdi. İndi o günlərdən neçə illər keçsə də, heç nə yaddan çıxmayıb, unudulmayıb. Mömünə xatun türbəsinin önündə bir dəstə toy libaslı qız-gəlin vardı, sanki ulu nənələrinin ruhuna hesabat verirdilər. Azca aralıda Rusiya televiziyasının şərhçisi, “Kino səyahətçiləri klubu”nun məşhur aparıcısı, dünya şöhrətli tanınmış norveçli səyyah, etnoqraf və alim-antroloq Yuri Aleksandroviç Senkeviç dayanmışdı. O, Naxçıvanla bağlı film çəkdiyini bildirdi. Yol yoldaşımız, söz adamı, gömrük xidməti polkovniki Hacı İdris Cəfərov 1969-cu ildə Misir Ərəb Respublikasında onunla görüşdüyünü bildirəndə Yuri Senkeviç gülümsündü:**



– Onda Norveç səyyahı Tur Heyerdalın komandasında “Ra” papirus qayığı ilə Atlantik okeanını üzməyə hazırlaşırdıq, – dedi.

– Siz heyətin həkimi idiniz, – Hacı İdris Cəfərov əlavə etdi.

– Tamamilə düzdür, – Yuri Senkeviç bildirdi.

Yuri Senkeviç 1981-ci ildə Bakıda olmağından böyük həvəslə danışdı. Qobustana qaya təsvirlərinə baxmağa gəlibmiş. Bakıya ikinci gəlişində isə Azərbaycanın dövlət başçısı İlham Əliyevin qəbulunda olacaqdı. Bu, 2011-ci ilin oktyabr ayında baş tutacaqdı. İndi isə 1999-cu il idi.

Böyük yazıçı Cəlil Məmmədquluzadənin ev-muzeyində olduğumuzu biləndə Yuri Senkeviç gülümsündü.

– Cəlil Məmmədquluzadə dünya şöhrətli yazıçı-dramaturq, tanınmış jurnalist, ictimai xadimdir, – dedi. – Bir gün əvvəl mən də yazıçı-dramaturqun xatirə muzeyində olmuşam. Həyat və fəaliyyətini əks etdirən eksponatlara baxdım, olanları lentə aldıq.

**Yuri Senkeviç azacıq sükutdan sonra sözünə davam edərək dedi:**

– Nehrəm qədim kənddir, – Çaylaq. Qumqala, Əyribucaq yaşayış məntəqələri kəndin qədim məhəllələrindən hesab olunur. Ailələr artdıqca yeni məhəllələr yaranıb. – Norveçli səyyah sonra cibindən çıxartdığı kitabçadakı vərəqləri çevirdi, qeyd etdiyi digər məhəllələrin adını çəkdi. – Xəndək, Bağarası, Təzə məhəllələr sonra yaranıb. Maraqlıdır ki, hər məhəllənin öz ağsaqqalı var. Məni maraqlandıran, hətta təəccübləndirən o idi ki, kənddə birlik, yekdillik, böyük-kiçiklik var. Adamlarla görüş məndə xoş təəssürat oyatdı. Yaxşı cəhət burasıdır ki, kənddə ailə münaqişələrinə, xüsusilə, boşanma hallarına yol verilmir. Belə hallar yarananda ağsaqqallar qabağa çıxır, məsələni yoluna qoyurlar.

Yuri Senkeviç Nehrəmlə bağlı sənədli film hazırlamaq fikrində olduğunu bildirdi.

Sonra xatirə olaraq Norveç səyyahı ilə şəkil çəkdirdik.

Yuri Senkeviçin 2003-cü ilin sentyabrında, 66 yaşında Moskvada ürək xəstəliyindən vəfat etdiyi xəbərini eşitdik.

***Hacı Etibar ƏHƏDOV,***
***Lənkəranda çıxan***
***“Aşkarlıq” qəzetinin baş redaktoru***

Xalq qəzeti.- 2025.- 23 may (№ 106). - S.10.